**Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin**
**təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı**
**hüquqi tənzimləmə haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi qüvvəyə mindiyi gündən aşağıdakı qanunlar ləğv edilir:

2.1. “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 1993-cü il 4 mart tarixli 526 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 9, maddə 224; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 17; 2001, № 6, maddə 360, № 11, maddələr 676, 683, № 12, maddə 736; 2003, № 1, maddə 5; 2004, № 2, maddə 57, № 4, maddə 202; 2006, № 12, maddə 1005; 2008, № 2, maddə 49, № 5, maddə 348, № 6, maddə 462; 2010, № 11, maddə 939; 2015, № 4, maddə 369; 2016, № 4, maddə 637; 2019, № 1, maddə 25; 2021, № 7, maddə 701; 2022, № 5, maddə 430);

2.2. “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının 1995-ci il 2 iyun tarixli 1049 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 366; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddələr 683, 686; 2004, № 2, maddə 57; 2015, № 4, maddə 370; 2017, № 7, maddə 1260; 2019, № 1, maddə 26; 2023, № 4, maddə 455);

2.3. “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasının 1998-ci il 15 dekabr tarixli 590-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 155; 2006, № 12, maddə 1005; 2007, № 11, maddə 1053; 2008, № 6, maddə 462; 2013, № 11, maddə 1282; 2015, № 4, maddə 371; 2016, № 1, maddə 18).

**Maddə 3**. Azərbaycan Respublikasının digər normativ hüquqi aktları bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə uyğunlaşdırılanadək həmin Məcəlləyə zidd olmayan hissədə tətbiq edilir.

**Maddə 4**. Bu Qanun 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 dekabr 2023-cü il
№ 1051-VIQ